BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Sosial-siyasi elmlər seriyası 2006

# AİLƏ SOSİAL İNSTİTUT KİMİ

**H.Q.CAVADOVA**
*Bakı Dövlət Universiteti*

*Cəmiyyət sosial əlaqələrsiz və qarşılıqlı təsirsiz mövcud ola bilməz. Bu əlaqə və təsir cəmiyyətin və fərdin ən mühüm tələbatlarını ödəyir, institutsionallaşdıqda daha da möhkəm və davamlı olur. Bu baxımdan sosial institutu sosial strukturun başlıca komponenti kimi, ictimai həyatın mühüm sferalarında ayrı-ayrı adamların fəaliyyətini birləşdirən və əlaqələndirən bir anlayış kimi başa düşmək olar. Cəmiyyətin ən mühüm sosial institutlarından biri fəaliyyəti hüquqi və əxlaqi qayda və normalarla tənzim edilən ailədir. Ailə müəyyən sosial funksiyalar yerinə yetirməklə cəmiyyətin inkişafında əhəmiyyətli rol oynayır.*

XIX əsrin ortalarından Avropanın görkəmli statistik-tədqiqatçıları olan Rivz və F.Le.Ple tərəfindən iri miqyaslı empirik tədqiqatların aparılması nəticəsində sosiologiyada ailənin öyrənilməsinin başlanğıcı qoyulmuşdur. Onlar bir-birindən xəbərsiz sənayeləşmənin, urbanizasiyanın, təhsilin və başqa amillərin ailəyə təsirini öyrənməyə cəhd etmişlər. O dövrdən başlayaraq ən qədim tarixə malik ailə institutunun öyrənilməsi daim sosiologiyanın diqqət mərkəzində olmuşdur. Ailə və nikahın sosiologiyası ailə üçün xarakterik olan sosial münasibətləri, ailə birliyinin strukturunu və sayını müəyyənləşdirən amilləri, ailənin digər sosial birliklərlə və sosial həyatın müxtəlif sahələri ilə əlaqəsini, ictimai funksiyalarını və xüsusiyyətlərini, nikahın və boşanmaların motivlərini, ailə həyatının planlaşdırılmasına təsir edən sosial və psixoloji amilləri, ailədaxili konfliktlərin meydana gəlməsi və aradan qaldırılmasını, ailə-nikah münasibətlərinin tarixi tiplərini və formalarını nəzərdən keçirir.

Ailənin sosiologiyasında ailə-nikah münasibətlərinə daxil olan əsas kateqoriyalar kimi aşağıdakılar nəzərdən keçirilir:

- ailə həyatı;
- ailənin sturkturu;
- ailənin funksiyaları;
- ailənin ideya-mənəvi mühiti;
- ailə həyatının mərhələləri.

Ailə sosiologiyada həm ilkin qrup, həm də sosial institut kimi öyrənilir. Qrup halında ilkin forma olan ailədə insanların spesifik birgəyaşayışı formalaşmışdır. Tarix boyu ailə mövcud ictimai quruluşla əlaqədar olaraq dəyişilmiş, yeni xüsusiyyətlər kəsb etmişdir. Ailə institutu nikah institutu ilə sıx bağlıdır. Ailənin hüquqi əsası cəmiyyət tərəfindən bu və ya digər formada müəyyən edilmiş nikah ittifaqıdır. Nikah kişi ilə qadın arasında, valideynlərlə uşaqlar arasında münasibətləri tənzimləyir, müəyyən normalara salır, bununla da ona

sosial institut xarakteri verir.

Ailənin sosial institut kimi spesifikliyi ondadır ki, birincisi, o, qan qohumluğu və nikah vasitəsilə iki və daha çox adamı bir qrupda birləşdirmək qabiliyyətinə malikdir, ikincisi, o, özünü tənzimləyən sistem kimi çıxış edir, üçüncüsü, onun cəmiyyətlə sanksiyalaşdırılmış əlaqəsi vardır. T.Parsons ailəni cəmiyyətin altsistemi kimi təhlil etmiş və göstərmişdir ki, o, cəmiyyətin digər alt sistemləri və struktur ünsürləri ilə əlaqəsi nəticəsində sosiumun stabilliyini təmin edir. Ailənin sosial institut kimi stabilliyi onun digər institutlarla – ən əvvəl dövlət, hüquq, ictimai rəy, din, təhsil və s. ilə qarşılıqlı əlaqəsindən asılıdır. Cəmiyyətin struktur-funksional inkişafına və normalar sisteminə qoşulan ailə öz üzvlərinin fəaliyyətini onların rol və statuslarını müəyyən etməklə tənzimləyir. Qanunvericilik bir institut kimi ailənin fəaliyyətində mühüm rol oynayır. Ailə hüququ mövcuddur ki, burada qanun ailənin mahiyyətini, ailədə kişinin, qadının, valideynlərin, uşaqların hüquq və vəzifələrini müəyyənləşdirir.

Azərbaycan Respublikasında ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Azərbaycanda ailə qanunvericiliyi ailənin möhkəmləndirilməsi zəruriyyətindən, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulmasından, ailənin işinə hər kəsin qarışmasının yolverilməzliyindən, ailə üzvlərinin ailə qarşısında qarşılıqlı yardım və məsuliyyətindən, onların hüquqlarının maneəsiz həyata keçirilməsinin təmin olunmasından və bu hüquqların məhkəmədə müdafiəsi imkanlarından irəli gəlir (1, s.13).

Azərbaycan Respublikasının Ailə Məcəlləsində nikah kişilər üçün 18 yaş, qadınlar üçün 17 yaş müəyyən olunmuşdur.

Çox qədim dövrlərdə bəşəriyyət tarixində insanlar arasında promiskutet – nizamsız cinsi əlaqələr mövcud idi. İnsanlar arasında mövcud olan belə əlaqə bəşəriyyət və insanlar üçün çox təhlükəli idi. Bu vəziyyəti aradan qaldırmaq üçün bir sıra qadağalar qoyulmağa başlandı. Qan qohumları arasında nikah qadağan olundu. Bu qadağa ana ilə oğul, bacı və qardaşlar arasında cinsi əlaqəyə icazə vermirdi. Beləliklə, tarixdə ilk dəfə olaraq belə vacib sosial qaydanın əsası qoyuldu. Bir qədərdən sonra başqa normalar da yaranmağa başladı. Artıq insanlar yaşamaq və öz həyatlarını qurmaq üçün normalara əməl etməyə başladılar. İnsanlar arasında demək olar ki, ilk sosial institut – ailə və nikah institutu olmuşdur. Nəsildən-nəsilə ötürülən ailə və nikah davranışları cəmiyyətin başqa institutları kimi kollektiv vərdiş, adət və ənənəyə çevrildi. Onlar insanların həyatını və yaşayışını müəyyən bir istiqamətə yönəltdi. Bu sahədə deviant davranış ciddi cəzaya məhkum idi (7, s.188).

Ailə ərlə-arvad arasında, valideynlərlə övladlar arasında konkret tarixi şəraitdə yaranmış münasibətlər sistemidir ki, burada bütün üzvlər nikah və ya qohumluq münasibəti ilə bağlıdırlar. Ümumi məişət və uşaqların tərbiyəsi üçün cəmiyyət qarşısında mənəvi məsuliyyət hissi onun əsasını təşkil edir (8, s.63).

Yalnız ər-arvadlıq, valideynlik-qohumluq münasibətlərinin vəhdət halında mövcudluğu sözün ciddi mənasında ailənin varlığından danışmağa imkan verər. Bu münasibətlərdən biri və ya ikisinin olmaması isə ailənin yarımçıqlığına dəlalət edir (bunun səbəbi müxtəlif ola bilər. Məs., uşaqlar böyüyüb ayrıla bilər, ailə dağıla bilər, xəstəlik, ölüm səbəbi, boşanma nəticəsində və s.). Gənc ailədə uşağın olmaması

validеynlik ünsürünün yoxluğunu göstərir və s. Digər tərəfdən elə hallar da var ki, məlum şəxs validеyndir, lakin ailəsizdir. Lakin elə hallar da var ki, ər-arvad münasibəti var, övlad yoxdur.

Müasir Azərbaycan ailəsi əsasən özündə 2 validеyni, bir və ya iki uşağı birləşdirən ilkin sosial və iqtisadi birlikdir. Belə ailələri nuklеar (latınca nuklеis - nüvə dеməkdir) ailə adlandırırlar. Müasir dövr üçün nuklеar ailə daha xaraktеrikdir. Nuklеar ailələr də ailənin tərkibinə, hakimiyyət strukturuna, ailədə rol münasibətlərinə görə bir-birindən fərqlənir. Dеmoqrafların hеsablamalarına görə, nuklеar ailə bu gün ən geniş yayılmış ailə tipidir. Vaxtilə Azərbaycan əsasən çoxuşaqlı ailələrdən ibarət rеspublika kimi tanınırdı. Lakin 1970-ci ildən sonra bütün yaş qruplarında doğumun göstəriciləri aşağı düşməyə başlamışdır.

Ailə münasibətlərinin, ailəvi rolların təhlili ailəni sosial institut kimi dərk еtmək üçün mühüm əhəmiyyət kəsb еdir. Ailənin əsasını kişi və qadının ittifaqı təşkil еtdiyinə görə ailədaxili münasibətlər də ilk dəfə onlar arasında yaranır. Kişi ilə qadının nikaha daxil olması yеni ailənin yaranması dеməkdir. Ailə həyatının ilk günlərində ailədaxili münasibətlər olduqca sadə formada olur. İlk əvvəl kişi ilə qadın arasındakı münasibət yalnız məhəbbətə əsaslanan ər-arvad münasibəti olur. Bu münasibət nikahsız birgə yaşayan kişi və qadın üçün də xaraktеrikdir. Kişi ilə qadının bir-birinə xoş münasibəti, qarşılıqlı sеvgisi, hörməti gələcək sağlam ailə həyatının təməlini təşkil еdir. Ailə üzvləri arasındakı xoş münasibət ailə həyatının hər bir sahəsində özünü büruzə vеrir. Xüsusilə də uşaqların tərbiyəsinə belə xoş münasibət olduqca müsbət təsir göstərir. Validеynlərin bir-birinə qarşı olan sеvgisi ən yaxşı tərbiyə üsuludur. Ata və ananın sеvgisi uşağa lazım olan hər şеyi vеrir. Ər-arvad arasındakı sеvgi, hörmət, qayğı, məsuliyyətin mövcudluğu ailənin digər üzvləri arasında da bu cür münasibətlərin olmasına kömək еdir. Şəxsiyyətlərarası münasibətlər ailənin atributudur. Bu o dеməkdir ki, insanlar özləri öz ailə münasibətlərini yaradırlar. Ailədə şəxsiyyətin formalaşması və inkişafı, o cümlədən sosial rolları yеrinə yеtirmələri də müxtəlif olur. Kişi və qadın arasındakı bu fərq, onlar arasındakı qarşılıqlı münasibətlər cəmiyyətdə sosial xaraktеr qazanır. Ailələrin sağlam təməl üzərində qurulması öz növbəsində gələcək sağlam cəmiyyətin mövcudluğu üçün də zəmin yaradır.

Ər-arvad arasındakı münasibətlər həm də onların xaraktеrinin uyğun olub-olmamasından asılıdır. Bu daha çox özünü onların müəyyən məsələlər barəsində düşüncələri zamanı büruzə vеrir. Onlar arasındakı fərq ər-arvadın dünyagörüşündən, intеllеktual səviyyələrindən asılıdır.

Sosioloqlar müəyyənləşdirmişlər ki, kişi və qadınların 70%-i bir-birini sеvərək еvlənir. Evləndən 5-6 il kеçir, məlum olur ki, onların yalnız 46%-i öz həyat yoldaşını sеvməkdə davam еdir, 24%-i isə artıq sеvmir. Ümumiyyətlə, еvləndən 5-6 il kеçdikdən sonra müxtəlif kişi və qadınların ailə həyatı davam еdirsə, onların bəlkə də yarısından çoxunu məhəbbət hissi birləşdirmir. Bu ailələrin təbiidir ki, bir çoxu dağılır. Belə bir fakt məlumdur ki, еvləndən 5-9 il kеçəndən sonra boşanan qadın və kişilər boşananlar içərisində xüsusi yеr tuturlar (4, s.557).

Son dövrlərin statistik məlumatları göstərir ki, Azərbaycanda ailə quranların orta yaş dövrü qadınlarda 23-24, kişilərdə 26-28 yaş dövrlərində olmuşdur. Eyni zamanda еrkən nikaha girmək halları da qеydə alınır. O da müşahidə olunur ki, nikah bağlayanların sayı artdıqca

boşananların sayı da çoxalmışdır. Son dövrlərdəki boşanma halları nikahın birinci ilində daha çox müşahidə olunur.

Müxtəlif alimlər tərəfindən bu istiqamətdə aparılan tədqiqatlar göstərir ki, məhəbbət ailə həyatının yalnız ilk illərində onun əsasını təşkil edir. 5-6 il keçəndən sonra nikahın taleyi təkcə məhəbbət hissindən yox, eyni zamanda birgə ömür-gün sürmüş ərin və arvadın şəxsiyyətindən, hər birinin şəxsi keyfiyyətlərindən asılıdır. Onların bir-biri ilə rəftarı, uşaqlarına münasibətləri, bu bəşəri hisslərin özü məhəbbətin taleyini həll etmiş olur.

Ümumiyyətlə, kişi ilə qadın arasındakı hər cür münasibət onların gündəlik ünsiyyəti zamanı yaranır. Kişi ilə qadın arasındakı münasibətlər ailədə yeni bir fərdin – uşağın doğulması ilə daha mürəkkəb xarakter qazanır. Bu zaman bu münasibətlər ər-arvad münasibətləri çərçivəsindən çıxaraq, valideyn, ata-ana münasibətlərinə çevrilir. Uşağın doğulması ilə valideynlər özlərini ailəyə və uşağa qarşı daha məsuliyyətli hiss edirlər.

Ailə elə bir məkandır ki, burada ailə üzvərindən hər birinin konkret rol bölgüsü olur. Ailə üzvləri arasındakı münasibətlər bu rollara uyğun olaraq yaranır. Hər bir ailə üzvünün ailədə qarşılıqlı rola görə qarşılıqlı münasibətləri dedikdə, həmin ailə üzvlərinin bir-birinə davranış norma və münasibətlərinin məcmuyu nəzərdə tutulur. Ailədə rollarına görə bu münasibət kişi və qadın, ata və uşaqlar, qardaş və bacılar, qaynata, qaynana və kürəkən, gəlin və s. arasında olub ənənəvi və müasir ailələrdə özünəməxsus xüsusiyyətləri ilə xarakterizə olunur. Belə ki, qadın uşaq dünyaya gətirib tərbiyə etməklə və ev işləri ilə məşğul olduğu, kişinin isə ailənin rəhbəri olub, mülkiyyətin təkbaşına sahibi və ailənin iqtisadi müstəqilliyinin təminatçısı olduğu dövr artıq keçmişdə qalmışdır. İndi regionlardan asılı olaraq qadınların əksəriyyəti istehsalatda, ailənin iqtisadi təminatında kişilərlə birlikdə iştirak edirlər (5, s.72).

Qohumluq əlaqələrinin strukturundan asılı olaraq sadə, mürəkkəb, nuklear, tam və natamam ailə formalarını ayırd etmək olar. Bu ailələrdən hər biri müəyyən dövr üçün daha xarakterik olmuşdur. Son dövrlərə qədər dünyanın hər yerində mürəkkəb ailələr geniş yayılmışdı. Belə ailələr bu gün də az deyildir. Lakin keçmişlə müqayisədə mürəkkəb ailələr kəmiyyət etibarilə bu gün daha azdır. Nuklear ailələr isə əksinə müasir dövrdə ən geniş yayılmış ailə formasıdır.

Mürəkkəb ailə 3 və ya daha çox nəsildən: baba-nənə, ata-ana və uşaqlardan ibarətdir. Əgər iki və ya daha çox nuklear ailə birlikdə yaşayırsa, bu mürəkkəb ailə hesab olunur. Keçmişdə belə ailələrə patriarxal ailə deyilirdi.

Azərbaycan Respublikasının əhalisi 100 il ərzində (1897-1997) 4,3 dəfə artaraq 8 milyon nəfərə çatmışdır. 1988-ci ildən sonrakı dövrdə Ermənistan respublikasının təcavüzü nəticəsində 18 min nəfər azərbaycanlı həlak olmuş, 50 min nəfəri şikəst edilmiş, 4.000 nəfər əsir aparılmış, 1 milyon nəfərdən çox qaçqın düşmüşdür (9, s.487).

Bunun nəticəsində respublikamızda çoxlu natamam və qaçqın ailələr əmələ gəlmişdir. İstər natamam şəhid ailələrinə, istərsə də qaçqın ailələrinə dövlət tərəfindən daima müəyyən imtiyazlar verilir. Belə ailələr dövlətin maddi və mənəvi qayğısını həmişə öz üzərlərində hiss edirlər. Bütün bunlar Azərbaycanda əhalinin təkrar istehsalının yenidən artmasına səbəb olmuşdur. Bazar iqtisadiyyatına keçidlə əlaqədar ölkədə iqtisadi vəziyyətin çətin olmasına baxmayaraq, nəslin təkrar istehsalı

ailənin əsas funksiyalarından biri olaraq qalmaqdadır.

Müasir dövrdə nikahlar qeyri-ciddi səbəblərdən də pozulur. Boşanma bütün ailə üzvlərinə mənfi təsir göstərir. Bu hadisə təkcə natamam ailələrin deyil, həm də tənha insanların cəmiyyətdə say etibarilə çoxalmasına səbəb olur. Boşanma doğumun səviyyəsinə də olduqca mənfi təsir göstərir və onun qarşısını alır.

Son dövrlərdə Azərbaycanda ailənin strukturuna təsir göstərən çox mühüm amillərdən biri də miqrasiyadır. Bu gün Azərbaycanda miqrasiyanın hər növünə rast gəlmək mümkündür. Bu proses bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq daha da sürətləndi. Miqrasiyanı ailənin strukturuna və bütünlüklə cəmiyyətə mənfi təsir göstərir. Miqrasiya prosesi həm də əhalinin azalması səbəblərindən biridir. İndi Azərbaycanda kişilər daha çox miqrasiya edirlər. Onlardan bəziləri mövsümi, bəziləri isə birdəfəlik miqrasiyaya üstünlük verirlər. Lakin hər iki halda da bu əhalinin say etibarilə azalmasına və doğumun aşağı düşməsinə səbəb olur.

Azərbaycanı tərk edənlər 84,3% Rusiyaya, 6,3% Ukraynaya, 1,1% Gürcüstana, 0,9% ABŞ-a getmişdir. Bu dövlətlərdən isə Azərbaycana gələnlərin sayı aşağıdakı kimidir: Rusiyadan - 48,3%, Ukraynadan - 6,6%, Gürcüstandan - 11,3% (6, s.69).

Ümumilikdə isə təkcə 2001-ci il ərzində respublikadan 7,3 min nəfər getmiş, 2,6 min nəfər isə respublikaya gəlmişdir (2, s.44).

Respublikanı tərk edənlər arasında kişilərin çoxluq təşkil etməsi ölkədə daha az nikahın bağlanmasına səbəb olur. Nəticədə cəmiyyətdə ailə qurmamış tənha qadınların sayı çoxalır. Miqrasiya nəticəsində həm ölkə daxilində, həm də ölkədən kənarda azərbaycanlılar arasında qarışıq nikahların olmasına da az təsadüf olunmur.

Ailənin sturkturundan danışarkən tam və natamam ailələri də bir-birindən fərqləndirmək lazımdır. Ailənin tam və ya natamam olmasını ər və arvadın varlığına əsasən müəyyən edirlər. Əgər ailədə ər və ya arvad birlikdə yaşayırsa, belə ailə tam ailə hesab olunur, əgər ər və arvad vəfat etmişdir, yaxud boşanmışdırsa, bu zaman ailə natamam ailəyə çevrilir.

Sosial funksiyalar dedikdə cəmiyyətin və insanların bazis tələbatları nəzərdə tutulur ki, bu da ailənin mövcudluğunu təmin edir. Ailənin əsas funksiyalarından biri reproduktiv-nəslin artırılması funksiyasıdır. İnsan nəslinin artırılması funksiyası cəmiyyətin inkişafının müqəddəm şərtlərindən birini - əhali artımını müəyyən edir. Bu funksiya eyni zamanda ailənin digər funksiyalarının yaranması və fəaliyyəti üçün zəmin yaradır: tərbiyə, sosiallaşma, təsərrüfat-iqtisadi, rekrasion və s.

İnsan nəslinin təkrar istehsalı üçün ailənin möhkəmliyi və stabilliyi vacib şərtdir. Tədqiqatçılar sübut edirlər ki, ailə münaqişələri, ər-arvadın bir-birindən ayrı yaşaması, boşanması doğum səviyyəsinin azalmasına gətirib çıxarır. Stabil ailələrdə uşaqların sayı qeyri-stabil ailələrə nisbətdə çoxdur.

Azərbaycan bir neçə onilliklər ərzində əhalisinin sürətli artımına görə keçmiş SSRİ respublikaları arasında ən qabaqcıl yerlərdən birini tutmuşdur. Lakin son onilliklərdə bu vəziyyət dəyişmişdir. Buna səbəb isə Azərbaycanın Ermənistanla müharibə şəraitində yaşaması, əhalinin demoqrafik strukturunun xeyli dərəcədə pozulması, respublikamızın müxtəlif regionlarında əhalinin yaş-cins tərkibində, ailə qurmaq yaşında olan gənc oğlan və qızların say tərkibində qeyri-normal nisbətin

yaranması və s.-dir. Bu amillər gənclərin ailə qurması işində çətinliklər yaranmasına səbəb olur, qanunauyğun şəkildə əhali artımına öz təsirini göstərir.

Dünya praktikasında baş verən demoqrafik proseslər belə bir nəticə çıxarmağa imkan verir ki, ailədə uşaqların sayının azalması, ailənin gənc üzvlərinin tezliklə müstəqil həyat sürmək meyllərinin artması, qadın və kişinin ailədə, deməli, həm də cəmiyyətdə sosial statusunun dəyişilməsi, şübhəsiz ki, ailədə baş verən bütün proseslərə, o cümlədən tərbiyəyə, sosiallaşmaya mühüm təsir göstərir. Sosioloqların əsas vəzifəsi bu prosesdəki başlıca meylləri üzə çıxarmaqdan, elmi sosial siyasətin işlənib hazırlanmasında fəal iştirak etməkdən ibarətdir. Ailənin möhkəmləndirilməsi dövlətin başlıca vəzifələrindən biridir. Möhkəm ailə möhkəm cəmiyyətin təməlidir.

Cəmiyyətdə ailənin müəyyən sosial tələbatlar və funksiyalarının ödənilməsi üçün qarşılıqlı şəkildə bir-birilə bağlı olan və fəaliyyət göstərən sosial rollar və normalar mövcuddur. Ona görə də sosiallaşma prosesi zamanı hər bir ailə üzvü bu sosial rollar və normalara uyğun formalaşmalı və tərbiyə almalıdır.

Fərdin bir sıra ictimai tələbatları ailədə formalaşır, ödənilir, inkişaf etdirilir. Tələbatlar isə daim yeniləşir: zaman insanın dünyaya, özünə münasibətini dəyişdirdiyi üçün tələbatlar da dəyişir. Fərd ailədə yaşamaq tərzini öyrənir. Ona görə də sosiallaşma funksiyası öyrənilərkən ilk növbədə müxtəlif ailə davranışı nümunələrini, ailədə rolların bölüşdürülməsini, ailə-nikah münasibətləri sahəsində norma və sanksiyaların xüsusiyyətləri nəzərdən keçirilməlidir.

Şəxsiyyət ilk növbədə ailədə norma və standartları qavrayır: partnyorun seçilməsi, onunla münasibəti, gələcək qohumlar ilə münasibətin qurulması və s.

Nikahın sabitliyini göstərən əsas göstəricilərdən biri ailədə idarəetmə və bu idarəetməyə rəhbərlik edən ailə başçısının roludur. Ailə başçısı ər, yaxud arvad ola bilər. Başçılıq etməyə qadir olan adamda bir sıra keyfiyyətlərin olması zəruridir: həyat təcrübəsi, sosial fəallıq, intellekt, təşkilatçılıq qabiliyyəti və s.

Ailə funksiyalarının müvəffəqiyyətlə həyata keçirilməsi üçün ailə üzvləri öz sosial rollarını yaradıcı şəkildə, çevik, bacarıqla icra etməlidirlər. Ailə funksiyalarının reallaşmasına ən çox xələl gətirən ailə üzvləri arasında yaranan anlaşılmazlıqdır. Ailədə ziddiyyətlər müxtəlif olur və burada qərarlaşmış münasibətlər sisteminə dərindən nüfuz edir. Bunları aradan qaldırmaq üçün ər-arvad öz mədəni səviyyələrini yüksəltməli, qabiliyyət və bacarıqlarını inkişaf etdirməli, ailədə yaranan çətinlikləri birgə səylə aradan qaldırmalıdırlar.

Ailənin funksiyalarından biri də iqtisadi-təsərrüfat funksiyasıdır. Ailə mülkiyyətinin toplanması və maddi tələbatların ödənilməsi bu funksiyaya aiddir.

Ailənin rekreasion funksiyası emosional müdafiəni təmin edir, psixoloji rahatlıq, təhlükəsizlik hissləri, sakitlik, inam yaradılmasına xidmət edir.

Ailə tərbiyəsinin bəzi stereotipləri həm ailəyə, həm də cəmiyyətə öz mənfi təsirini göstərir. Belə stereotiplərdən biri uşaqların diqqət mərkəzində olmasında, qayğı ilə əhatə edilməsində ifrata varmaqdır. Uşaqlara heç bir qadağa qoyulmaması uşaqların eqoist ruhda böyüməsi ilə nəticələnir. Digər stereotip isə ailə başçılarının tərbiyə funksiyasını öz üzərindən atmasında təzahür edir. Bu cür ailə başçılarına elə gəlir ki,

uşaqların tərbiyəsi ilə yalnız pedaqoqlar, peşəkar tərbiyəçilər (məktəblərdə, uşaq bağçalarında) məşğul olmalıdırlar. Belə valideynlər öz borclarını yalnız ailəni maddi cəhətdən təmin etməkdə görür, zəngin tərbiyə imkanlarına laqeydlik göstərirlər. Belə ailələrdə ailə problemlərinin birgə müzakirəsi minimaldır, dialoq təcrübəsi aşağı səviyyədədir, uşaqlar hətta valideynləri ilə ünsiyyətə girə bilmirlər.

Ailənin normal yaşaması üçün onun özünəməxsus xüsusiyyətləri ailə nəsillərinin varisliyinin valideyn-ər-arvad-qohumluq vəhdətinin saxlanmasını tələb edir. Tarixi prosesdə bu tələbatlar sosial varlığın elə formalarını doğurur ki, nəticədə ailə təsisatının möhkəmlənməsi təmin edilir. Həmin tələbatların formalaşması və dinamikası bu və ya digər epoxanın xüsusiyyətləri ilə şərtlənmişdir.

Dəyişiklikləri qiymətləndirmək üçün "keçmiş" və "müasir" ailə tiplərinin müqayisəsi olduqca əhəmiyyətlidir. Ən yaxşı metod keçmiş və müasir ailələrdə baş verən faktların öyrənilməsi və ümumiləşdirilməsi, "ənənəvi" ailələrlə tanışlıq təmin edilməsidir.

Uilyam Qudun "Ailə modeli və dünyada sənaye inqilabı" adlı kitabında klassik "ənənəvi" ailə haqqında təsəvvürləri yaxşı əks etdirən keçmişin amerikan ailəsi stepeotipindən misal gətirilir. Qısaca olaraq bunu göstərək: "Baba-nəvə formasında həyat mənzərəsi gözəldir. Nəhəng evdə çoxlu qohumlar və xoşbəxt uşaqlar birgə yaşayır və işləyirlər. Ailə çoxfunksiyalıdır: ailə təsərrüfatı, avadanlıq, əmlak, iqtisadi müstəqillik. Ata sərt və təmkinlidir, axırıncı söz həmişə onundur. Məişətin təşkilində ana emosional və müdrikdir. Gənclər tez evlənirlər, nikaha qədər bakirəliyi gözləyir, nikahda səbatlıdırlar. Özünə ər və ya arvad seçimində valideynlər onların istəyini rədd edə bilərlər, çünki evlənəndən sonra onlar firmanın vərəsəliyi hüququnu qazanırlar. Boşanma halları demək olar ki, yoxdur" (3, s.102).

Müasir ailə stereotipində "demokratikləşmə", cinslərin "bərabərliyi" mövzusu mühüm yer tutur. Bu halda qadınların hüquq və imkanlarına geniş yer verilir, onların özünə ər seçmək, nikahı pozmaq hüququ xüsusi qeyd edilir, eyni zamanda ailədə tərəflərin yola getməsi üçün sevgi modelinə üstünlük verilir, ailə statusunda qeyri-bərabərliyin azaldılması vurğulanır. Amerika alimi Q.Qud göstərir ki, real həyatda bu prinsiplər əsasında qurulan ailələr yoxdur; həmin prinsiplər ancaq idealı ifadə edir. Lakin bu prinsiplərin həyatda reallaşmasının qeyri-mümkünlüyünü sübut etmək üçün çoxlu fakt gətirmək lazımdır. Lakin sosioloqun vəzifəsi stereotipləri gözdən salmaqdan yox, bunların ailənin vəhdəti və ailə funksiyalarını yerinə yetirməsində səmərəsini izah etməkdən ibarətdir. Ailə sosiologiyası sadəcə baş vermiş dəyişiklikləri qeyd etmir, eyni zamanda onları qiymətləndirməyə çalışır. Bu halda hər şeydən əvvəl ailənin qorunub saxlanmasına və uğurlu fəaliyyətinə verəcəyi səmərə nöqteyi-nəzərindən qiymətləndirilmə əsas götürülür.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı, 2001.
2. Azərbaycan statistik göstəriciləri. B., 2002.
3. Антонов А.И., Медков В.М. Социология семьи. М., 1996.
4. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. B., 2002.
5. Владимирович Д.И. Современный брак, проблемы и гармония. М., 1990.
6. Quliyeva A.A. Azərbaycanda insan inkişafının sosial-iqtisadi problemi. B., 2000.
7. Кравченко А.И. Социология. М., 2005.
8. Харчев А.Г. Брак и семья в СССР. М., 1979.
9. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik problemi. B., 2002.


## СЕМЬЯ КАК СОЦИАЛЬНЫЙ ИНСТИТУТ


**Х.Г.ДЖАВАДОВА**


## РЕЗЮМЕ


В статье рассматриваются специфические особенности семьи как важного института общества, взаимосвязь семьи и общества, ее значительная роль в жизни людей. Анализируются внутрисемейные отношения и социальные функции семьи с точки зрения осознания семьи как социального института.